**Haziyev A.H.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.79-86**
**UDC: 347.1**

## Exercise of civil rights and performance of duties

**Abstract:** The article is devoted to the implementation of civil rights and the performance of duties.

İt is specifically stated (mentioned) in the article that the main method of the jurisdictional form of protection of civil rights is their judicial protection. It is also mentioned in the article that the implementation of the subjective civil right takes place through the performance of certain actions by the subject.

The exercise of subjective civil rights aims to realize the possibilities included in the content of this right. The article also shows that the implementation of subjective civil rights is inextricably linked with the performance of subjective duties.

**Keywords:** subjective civil rights; civil-legal protection; subject; authorized person; property; object; content of the right of protection; performance of duties; debtor, performance of obligation; passive type duties.

### References

1. Constitution of the Republic of Azerbaijan. – Baku, Huquq Yayin Evi Publ., 2021, 63 p. (in Azerbaijani).

2. Allahverdiyev S.S. Civil Law. 1st Book. General Part. Baku, Digesta Publ., 2003, 974 p. (in Azerbaijani).

3. Allahverdiyev S.S. Course of Civil Law. Vol. 1, 3rd edition. Baku, Huquq yayin Evi Publ., 2018, 928 p. (in Azerbaijani).

4. Demirchiyeva M.D. Civil Law. Textbook. Baku, Zardabi Ltd MMC Publ., 2015, 695 p. (in Azerbaijani).

5. Asgarov Y.G. Commentary on the Civil Code of the Republic of Azerbaijan. 1st Book. Baku, Ganun Publ., 2014, 948 p. (in Azerbaijani).

6. Civil Law. Ed. by E.A. Sukhanov. Baku, Ganun Publ., 1999, 572 p. (in Azerbaijani).

7. Bratus S.N. Legal responsibility and legality. Moscow, Yurid. lit. Publ., 1976, 216 p. (in Russian).

8. Civil Law. Textbook. Part 1. Ed. by A.P. Sergeev, Yu.K. Tolstoy. Moscow, Prospect Publ., 1998, 632 p. (in Russian).

9. Ioffe O.S. Soviet civil law. Moscow, Yurid. lit. Publ., 1967, 494 p. (in Russian).

10. Kraschennikov E.A. The structure of subjective law and the right to defense. Protection of subjective rights and civil proceedings. Yaroslavl, 1977, 634 p. (in Russian).

11. Polyanina S.V. Human rights and its protection // *Gosudarstvo i pravo – State and law*. 1996. No. 10. (in Russian).

♦ **Haziyev Araz Huseyn oglu** – Master's student of Law Department of the National Aviation Academy (Azerbaijan). E-mail: arazhziyev102@gmail.com

**Həziyev A.H.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.79-86**
**UOT: 347.1**

## Mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrası

**Xülasə:** Məqalə mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrasına həsr olunub.

Xüsusilə məqalədə göstərilir ki, mülki hüquqların müdafiəsinin yurisdiksiya formasının əsas üsulu onların məhkəmə müdafiəsidir. Həm də məqalədə qeyd olunur ki, subyektiv mülki hüququn həyata keçirilməsi subyekt tərəfindən müəyyən hərəkətlərin edilməsi yolu ilə baş verir. Subyektiv mülki hüquqların həyata keçirilməsi səlahiyyətli şəxsin bu hüququn məzmununa daxil olan imkanları reallaşdırmaq məqsədi daşıyır. Məqalədə həmçinin subyektiv mülki hüquqların həyata keçirilməsinin subyektiv vəzifələrin icrası ilə qırılmaz şəkildə bağlılığı göstərilir.

**Açar sözlər:** subyektiv mülki hüquqlar; mülki-hüquqi müdafiə; subyekt; səlahiyyətli şəxs; əmlak; əşya; müdafiə hüququnun məzmunu; vəzifələrin icrası; borclu şəxs; öhdəliyin icrası; passiv tipli vəzifələr.

Azərbaycan Respublikası Konstitusiyasında insan və vətəndaş hüquqları və azadlıqları geniş və əhatəli şəkildə nəzərdə tutulmuşdur. Şübhəsiz ki, bu hüquqlar və azadlıqlar insan üçün o zaman sosial faydalı ola bilər ki, onlar maneəsiz və real olaraq həyata keçirilə bilsinlər. Dövlətin ali məqsədi kimi insan və vətəndaş hüquqlarının qorunması, ali qanunumuz olan Konstitusiyamızın 12-ci maddəsində nəzərdə ttutulmuşdur. Bu ali məqsədin tərkib hissəsinə hüquqların, o cümlədən mülki hüquqların müdafiəsi də daxildir. Buna görə də şərh olunan maddədə nəzərdə tutulmuşdur ki, mülki hüquqlara hörmət bəsləmək və onların müdafiəsinə kömək göstərmək istisnasız olaraq bütün dövlət və yerli özünüidarə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqı təşkilatlarının, fiziki və hüquqi şəxslərin borcudur. Mülki hüquqların müdafiəsi qanunvericiliyin nəzərdə tutduğu qaydada və əxlaqa zidd olmayan üsullarla həyata keçirilir. Mülki hüquq normalarının ümumi təhlilinə əsaslanaraq hüquq ədəbiyyatında mülki hüquqların müdafiəsinin yurisdiksiya və qeyri-yurisdiksiya formalarını fərqləndirirlər [5, s. 67].

**İşin məqsədi:** subyektiv mülki hüquqların həyata keçirilməsi və müdafiəsi zamanı qanunvericiliyin tələblərinə düzgün əməl etməkdir.

Mülki hüquqların müdafiəsinin yurisdiksiyası forması pozulmuş və ya mübahisə edilən mülki hüququn səlahiyyətli dövlət orqanları tərəfindən bərpası və hüquqpozmanın qarşısının alınmasıdır. Mülki hüquqların müdafiəsinin yurisdiksiya forması, bu hüquqların məhkəmə və inzibati qaydada müdafiəsini nəzərdə tutur.

Hüquqların, o cümlədən mülki hüquqların müdafiəsinin yurisdiksiya formasının əsas üsulu onların məhkəmə müdafiəsidir. Konstitusiyanın 60-cı maddəsində hüquq və azadlıqların məhkəmə təminatı nəzərdə tutulmuş və hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilmişdir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir [1, s. 20].

♦ **Həziyev Araz Hüseyn oğlu** - Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının magistrantı (Azərbaycan). E-mail: arazhziyev102@gmail.com

Bu Konstitusiya müddəaları əsasında Mülki Məcəllənin 6-cı maddəsində mülki hüquqların məhkəmə müdafiəsi mülki qanunvericiliyin əsas prinsiplərindən biri kimi nəzərdə tutulmuşdur. Hətta mülki hüquq normasının olmaması və ya onun qeyri-müəyyənliyi məhkəmənin mülki mübahisəni həll etməkdən imtina etməsinə əsas vermir.

Hər hansı bir hüquq, o cümlədən, subyektiv mülki hüquq həyata keçirilə bildikdə sosial dəyərə malik olur. Qanunvericilikdə səlahiyyətli şəxs tərəfindən qanunla və ya müqavilə ilə müəyyən olunana səlahiyyətlərin məzmununa daxil olan subyektiv hüquqların həyata keçirilməsi mülki hüquqların həyata keçirilməsi kimi anlaşılır.

**Subyektiv mülki hüququn həyata keçirilməsi** – səlahiyyətli şəxsin bu hüququn məzmununa daxil olan imkanları reallaşdırmasıdır. Subyektiv mülki hüquqları həyata keçirərkən subyekt mülkiyyət hüququna əsaslanan əmlak əldə etmək, hüquqi şəxslər yaratmaq və əqdlər bağlamaq yolu ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əsərlər açıqlamaq və müəlliflik hüququ əldə etmək nəticəsində elmi qabaqcıllığı təsdiq etmək kimi iqtisadi-sosial və hüquqi məqsədlər güdür.

Subyektiv mülki hüququn həyata keçirilməsi subyekt tərəfindən müəyyən hərəkətlərin edilməsi yolu ilə baş verir. Nəzərə almaq lazımdır ki, bu hərəkətlər heç də həmişə düşünülmüş və iradəvi olmur. Belə ki, məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsiz kimi tanınmış vətəndaş evdə yaşamasından istifadə edərək evin mülkiyyətçisi səlahiyyətini həyata keçirə bilər. Lakin mütləq əksər hallarda subyektiv mülki hüquqların həyata keçirilməsi müxtəlif sosial-iqtisadi və hüquqi məqsədlər güdən subyektlərin iradəvi, düşünülmüş hərəkətləri nəticəsindəbaş verir. Onlar əmlaka mülkiyyət hüququnun əldə edilməsi, əşyanın istifadə edilməsi prosesində ondan faydalı xassələrin çıxarılması; əsərin nəşri nəticəsinə və ya ixtiraya patent alınmasına elmi prioritetin təsbit edilməsi; ləkələnmiş ləyaqətin bərpa edilməsi; özgəsinin qeyri-qanuni sahibliyindən öz əşyasının tələb edilməsi; əqdin etibarsız hesab edilməsi və i. Ona görə də belə bir fikrə haqq vermək olar ki, subyektiv mülki hüquqların həyata keçirilməsi səlahiyyətli subyektin predmet fəaliyyətidir ki, bunun nəticəsində o, əlində olan hüquqi imkanlar sayəsində öz maddi və mənəvi tələbatını ödəyir [4, s. 303].

Hüquq və vəzifələrin icrasının həyata keçirilməsinin reallığı iqtisadi, siyasi və təşkilati təminatların inkişaf səviyyəsinə uyğun olmalıdır. Belə təminatlar dedikdə, cəmiyyətin iqtisadi, siyasi və hüquqi sisteminin vətəndaş və təşkilatların maraq və tələbatlarını daha tam şəkildə təmin etmək, onların yaradıcı, azad təşəbbüskar fəaliyyətləri üçün zəmin yaratmaq qabiliyyətinin olmasıdır. Subyektiv hüquqların həyata keçirilməsinin başlıca təminatlarından birini qanunvericilikdə və hüquqtətbiqedici fəaliyyətdə mülki hüquqların maneəsiz həyata keçirilməsi təşkil edir. Subyektlər üzərinə qoyulan mülki-hüquqi vəzifələrin icrasının əsas təminatı kontragentin maraqları ilə onların maraqlarının solidar olmasıdır.

Subyektiv mülki hüquqların həyata keçirilməsində onların hüdudları anlayışının mühüm praktiki əhəmiyyəti vardır.Subyektiv mülki hüquqların həyata keçirilməsinin hüdudları dedikdə həmin hüquqların məzmununu təşkil edən imkanların realizəsi üzrə səlahiyyətli şəxslərin qanunla ümumi şəkildə təsvir edilmiş fəaliyyət sərhədləri nəzərdə tutulur.

Subyektiv mülki hüquqların həyata keçirilməsi hüdudları subyektiv mülki hüquqların həyata keçirilməsinin müəyyən forma və prosedurlarının pozulmasının yolverilməzliyini müəyyənləşdirən qadağalardan bəhs edə bilər. Məsələn, ümumi paylı mülkiyyətdə olan əmlakın üstün alış hüququnun pozulması ilə; ipoteka müqaviləsinin sonrakı dövlət qeydiyyatı olmadan daşınmaz əmlak girovunun özgəninkiləşdirilməsi və s.

Subyektiv mülki hüquqların həyata keçirilməsinin hüdudları sosial zərərli məqsədlərə nail olmaq üçün hüquqların istifadəsinə qoyulan qadağanlarda özünü aydın büruzə verir.

E.A.Suxanovun redaktorluğu ilə çap olunan “Mülki hüquq” dərsliyində subyektiv mülki hüquqların mülki-hüquqi müdafiəsinə belə anlayış verilmişdir: vətəndaş və ya təşkilata verilmiş hər hansı hüquq, əgər qanunla,yəni, son hesabda dövlətin məcburedici qüvvəsi ilə təminatlandırılıbsa, real qüvvəyə malikdir. İctimai əlaqələrin məlum pozulması nəticəsində iri əmtəə istehsalçılarının inhisarçı vəziyyəti qabarıq şəkildə özünü göstərdiyi müasir keçid dövründə, təsərrüfatçılıq azadlığının düzgün anlaşılmaması əmək kollektivlərinin kollektiv eqoizmini yaratdı, müqavilə intizamı olduqca zəifdir və digər neqativ amillər meydana gəldi, mülki hüquqların müdafiəsi problemi xüsusi əhəmiyyət aldı [6, s. 211].

Bununla yanaşı, hüquqi dövlət yaratmaq şəraitində müdafiə hüququ kateqoriyası əsaslı və hərtərəfli səciyyə daşıyır. Ənənvi olaraq müdafiə hüququna hər hansı subyektiv mülki hüququn onun öz təbiətindən irəli gələn, hüquq-mühafizə qaydalarının müəyyən imkanlarını mütləq əhatə edən elementi (səlahiyyəti) kimi baxılmışdır. Lakin hüquqi dövlət şəraitində vətəndaşların və təşkilatların hüquqlarını müdafiə etməyin əhəmiyyəti nöqteyi-nəzərindən müdafiə hüququna özünəməxsus məzmuna malik müstəqil subyektiv hüquq kimi baxılmalıdır. Belə münasibət subyektiv hüququların tənzimləyici və mühafizəedici kimi ümumi nəzəri bölgülərinə də uyğundur.

Buna görə də müdafiə hüququ səlahiyyətli şəxsin hüquqi-mühafizə xarakterli xüsusi tədbirlərdən istifadə etməyinin hüquqi təsbit edilmiş imkanlarını ifadə edən subyektiv mülki hüquq hesab olunur.

**Müdafiə hüququnun məzmunu.** Hər bir subyektiv hüquq kimi, müdafiə hüququna da üç mövqedən baxmaq lazımdır: səlahiyyətli şəxsin öz hüquqlarını müdafiə etmək üçün tətbiq edə biləcəyi hüquq-mühafizə tədbirləri nöqteyi-nəzərindən; onun hüquqpozana bilavasitə təsiri baxımından; müstəqil fəaliyyəti lazımi nəticələr vermədikdə səlahiyyətli şəxsin istifadə edə biləcəyi dövlət-məcburiyyət tədbirlərini istifadə etməsi nöqteyi-nəzərindən.

Müdafiə hüququnun məzmununa həm maddi-hüquqi, həm də prosessual-hüquqi xarakterli tədbirlər daxil olur. Bu müdafiə hüququnun vətəndaşlara və təşkilatlara məxsus müstəqil subyektiv hüquq hesab edilməsi üçün əlavə əsasdır [4, s. 326].

Müdafiə hüququ maddi-hüquqi məzmunu nöqteyi-nəzərdən səlahiyyətli şəxsə üç qrup imkanlar verir: birincisi, əmlak və qeyri-əmlak hüquqlarını və mənafelərini özünümüdafiə; ikincisi, intizamsız kontragentə əməli təsir göstərmə tədbirlərinin tətbiqi; üçüncüsü, öz hüquqlarını müfadiə etmək məqsədilə səlahiyyətli dövlət və ictimai orqanlara hüquqpozana dövlət məcburiyyət xarakterli tədbirləri tətbiq etmək tələbi ilə müraciət etmək.

Hüquq ədəbiyyatı səhifələrində və mülki hüquq elmində (sivilistika doktrinasında) biz tez-tez «mülki hüquqların qorunması» termini ilə rastlaşırıq [9, s. 472]. Bu terminlə hansı məna ifadə olunur? Hər şeydən əvvəl, dərhal onu qeyd edirik ki, «mülki hüquqların qorunması» anlayışı «mülki hüquqların müdafiəsi» anlayışı ilə üst-üstə düşmür. Bunlar həddən artıq, son dərəcə yaxın «qohumluq» münasibətində olsalar da, bir-birindən fərqli anlayışlardır. Amma «mülki hüquqların qorunması» anlayışının sinonimi kimi «mülki hüquqların mühafizəsi)) anlayışı işlədilir. Bunlar mənaca üst-üstə düşür.

Mülki hüquqların qorunması anlayışı mülki hüquq elmində və qanunvericilikdə iki mənada işlədilir: geniş və məhdud mənada.

**Geniş mənada mülki hüquqların qorunması** dedikdə mülki hüquq normalarında nəzərdə tutulan bütün üsul və vasitələrin elə sistemi (məcmusu) başa düşülür ki, bu sistem cəmiyyətdə mülki

xarakterli münasibətlərin maneəsiz və normal inkişafını təmin edir. Söhbət həmin üsul və vasitələrdən istifadə etməklə mülki hüquqların normal həyata keçirilməsinin təmin olunmasından gedir. Onlar xarakter və məzmun etibarilə bir neçə yerə bölünür:

- hüquqi xarakterli üsul və vasitələr;
- iqtisadi xarakterli üsul və vasitələr;
- siyasi xarakterli üsul və vasitələr;
- təşkilati xarakterli üsul və vasitələr;
- digər üsul və vasitələr.

Göstərilən üsul və vasitələri birləşdirən cəhət ondan ibarətdir ki, onların hamısı subyektiv hüquqların həyata keçirilməsi üçün lazımi şərait yaratmağa yönəlir və səmtlənir. Məhz onların sayəsində bu hüquqların həyata keçirilməsinin normal gedişi təmin edilir [8, s. 280].

Mülki-hüquqi xarakterli qoruma üsul və vasitələri özü iki növə ayrılır. Birinci növ üsul və vasitələr mülki hüquq pozuntusu törədilməyən hallarda işə düşürvə tətbiq olunur, yəni həmin üsul və vasitələrin tətbiqi mülki hüquq pozuntusu ilə bağlı olmur. Onların vasitəsi ilə mülki hüquq münasibətlərinin normal, pozulmamış vəziyyətdə inkişafı təmin olunur. Məsələn, müəyyən növ əmlakın hüquqi rejiminin tənzimlənməsi, mülki hüquq və fəaliyyət qabiliyyəti barədə qayda müəyyənləşdirilməsi və s. bu qəbildən olan üsul və vasitələrə misal çəkmək olar.

İkinci növ üsul və vasitələrin isə tətbiqi mülki hüquq pozuntusu ilə və ya mübahisə edilən hüquqla əlaqədardır.Əgər mülki hüquqlar pozularsa (yəni mülki hüquq pozuntusu törədilərsə) və ya mülki hüquqlar barədə mübahisə edilərsə, onda bu növ üsul və vasitələr tətbiq olunur. Onların vasitəsilə pozulmuş mülki hüquq münasibətlərinin bərpası təmin edilir və ya mübahisə edilən hüquqlar tanınır. Məsələn, mülkiyyətçinin əşyası oğurlanır və bununla onun mülkiyyət hüququ (mülkiyyət hüquq münasibəti) pozulmuş olur. Mülkiyyətçi vindikasiya iddiası verməklə əşyanı onu oğurlayan şəxsdən geri alır və bununla pozulmuş hüquq bərpa edilir.

**Məhdud mənada mülki hüquqların qorunması** dedikdə, yalnız o üsul və vasitələr başa düşülür ki, onlar mülki hüquqlar pozulduğu və ya mübahisə olunduğu hallarda həmin hüquqların bərpa edilməsinə və ya tanınmasına yönəlir. Məsələn: bir misalda kirayəçinin təqsiri üzündən bağ evi yanır. Kirayəyə verən şəxs bağ evini bərpa etmək üçün iki ay təmir işləri gördürür. Kirayəçi həm real zərərin (təmirə çəkilən xərclərin) əvəzini, həm də əldən çıxmış faydanın əvəzini (iki aylıq kirayə haqqını) ödəyir. Beləliklə, zərərin əvəzini ödəmək üsulu ilə kirayəyə verənin pozulmuş hüquqları bərpa edilir. Hüquqların tanınması, zərərin əvəzini ödəmə kimi göstərdiyimiz və digər üsulların (vasitələrin) tətbiqi məhdud mənada mülki hüquqların qorunmasını ifadə edir. Bu üsul və vasitələr yalnız mülki hüquqlar (mənafelər) pozulduğu və ya mübahisə edildiyi hallarda işə düşür. Onlar mülki hüquqların bərpa edilməsinə və ya bu hüquqlarm tanınmasına, habelə qanunla qorunan mənafeyin müdafiə olunmasına yönəlir.

Terminoloji dolaşıqlıq və qarışıqlıq yaratmamaq üçün mülki hüquq elmində (sivilistika doktrinasında) və qanunvericilikdə məhdud mənada mülki hüquqların qorunması anlayışının əvəzinə mülki hüquqların müdafiəsi anlayışı işlədilir.Həmin anlayış mülki hüquqlarm müdafiəsi anlayışı ilə əhatə edilir. Buna görə də onlar mənaca üst-üstə düşən sinonim anlayışlardır [2, s. 877].

Normal iqtisadi (əmlak) dövriyyə subyektlərin təkcə müəyyən mülki hüquqlara malik olmasını deyil, həm də mülki hüquqların lazımınca qorunmasını, o cümlədən müdafiə edilməsini məqsədəuyğun hesab edir.

Mülki hüquqların müdafiəsi sahələrarası anlayışdır. Belə ki, bu anlayışdan hüququn mülki hüquq sahəsindən əlavə, həm də mülki prosessual hüquq sahəsində (mülki prosesdə) istifadə olunur. O, iki mənada həm maddi-hüquqi, həm də prosessual-hüquqi mənada işlədilir. Maddi-hüquqi mənada mülki hüquqlarm müdafiəsi mülki hüquqların anlayışı kimi göstərilir. Prosessual-hüquqi mənada isə o özünü mülki-prosessual hüququn anlayışı kimi nəzərdə tutulur. O, mülki hüququn anlayışı kimi mülki-hüquqi əhəmiyyət, mülki prosessual hüququn anlayışı kimi isə mülki-prosessual əhəmiyyət kəsb edir.

Mülki hüquqların müdafiəsi subyektin müdafiə hüququ anlayışı ilə sıx surətdə bağlıdır. Müdafiə hüququ səlahiyyətli şəxsə verilən hüquqqoruyucu xarakterli elə bir hüquqi imkandır ki, bu hüquqi imkandan istifadə etməklə onun pozulmuş hüququ bərpa edilir və ya mübahisə edilən hüququ tanınır. Bu cür hüquqi imkan olmazsa, söz yox ki, subyektiv mülki hüquqlar real əhəmiyyətə malik ola bilməz.

Mülki hüquq elmində müdafiə hüququ müxtəlif aspektlərdən tədqiq edilir [11]. Onun məna və mahiyyətinin başa düşülməsi müəlliflər arasında mübahisəyə səbəb olmuşdur. Bu barədə iki əsas konsepsiya yaranmışdır.

Birinci konsepsiyaya görə, müdafiə hüququ subyektiv mülki hüququn məzmununa daxil olan elementlərdən (tərkib hissələrdən) – hüquqi imkanlardan, yəni səlahiyyətlərdən biridir. Bu baxımdan o, subyektiv mülki hüququn məcburi elementi kimi çıxış edir [7, s. 73-74]. O, subyektiv mülki hüquq pozulduğu hallarda dövlət məcburetmə tədbirlərindən istifadə olunmasının tələb edilməsi imkanını göstərir.

İkinci konsepsiyaya görə, müdafiə hüququ müstəqil subyektiv hüquqdur [10, s. 24]. Bu konsepsiyanı dəstəkləyən müəlliflər belə hesab edirlər ki, yalnız mülki hüquqlar pozulduğu və ya mülki hüquqlar mübahisə olunduğu anlarda müdafiə hüququ müstəqil subyektiv hüquq kimi çıxış edir. Belə hallarda qoruyucu xarakterli mülki hüquq münasibəti yaranır ki, həmin müdafiə hüququ bu münasibət çərçivəsində həyata keçirilir.

Bizim fikrimizcə, hər iki konsepsiya hüquqazidd olmayıb, həqiqətə uyğundur. Belə ki, müdafiə hüququ, birincisi, subyektiv mülki hüququn məzmununa daxil olan elementlərdən-səlahiyyətlərdən (hüquqi imkanlardan) biridir. Bunu heç kəs inkar edə və mübahisə predmetinə çevirə bilməz.

İkincisi, digər tərəfdən, müdafiə hüququnu müstəqil subyektiv hüquq hesab etmək üçün tutarlı əsaslar vardır. Bildiyimiz kimi, hər bir müstəqil subyektiv hüququn məzmunu bir neçə elementdən-imkanlardan (səlahiyyətdən) ibarətdir: səlahiyyətli şəxsin özünün müsbət hərəkətlər etmək səlahiyyəti (hüquqi imkanı), səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən davranışı tələb etmək səlahiyyəti (hüquqi imkanı). Müdafiə hüququnun məzmununa element kimi hər iki səlahiyyət (hüquqi imkan) daxildir [3, s. 879].

Belə bir qənaətə gələrək qeyd etmək olar ki, subyektiv mülki hüquqlar və ya bu hüquqların həyata keçirilməsi, həmin hüquqların məzmununu təşkil edən hüquqi imkanların (səlahiyyətlərin) şəxs tərəfindən gerçəkləşdirilməsi və realizə edilməsikimi başa düşülməlidir.

**Nəticə:** Beləliklə, subyektiv mülki hüquqların həyata keçirilməsi müxtəif sosial-iqtisadi və hüquqi məqsədlər güdən subyektlərin iradəvi, düşünülmüş hərəkətləri nəticəsində baş verir. Bu hüquqlar səlahiyyətli şəxs tərəfindən müxtəlif üsullardan istifadə edilməklə həyata keçirilir. Subyektiv mülki vəzifələrin icrası borclu şəxsin lazımi davranış hədlərində ifadə olunur.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi, 2021. – 63 s.
2. Allahverdiyev S.S. Mülki hüquq. I kitab. Ümumi hissə. – Bakı: Digesta, 2003. - 974 s.
3. Allahverdiyev S.S. Mülki hüquq kursu. I cild, 3-cü nəşr. – Bakı: Hüquq yayın Evi, 2018. - 928 s.
4. Dəmirçiyeva M.D. Mülki Hüquq. Dərslik. – Bakı: Zərdabi LTD MMC, 2015. – 695 s.
5. Əsgərov Y.Q. Azərbaycan Respublikası Mülki Məcəlləsinin kommentariyası. 1 Kitab. - Bakı: Qanun, 2014. – 948 s.
6. Mülki hüquq. E.A.Suxanovun redaktəsi ilə. –Bakı: Qanun, 1999. – 572 s.
7. Братусь С.Н. Юридическая ответственность и законность. - М.: Юрид. лит., 1976. – 216 с.
8. Гражданское право. Учебник. Часть 1 / Под ред.А.П.Сергеева, Ю.К.Толстого. - М.: Проспект, 1998. – 632 с.
9. Иоффе О.С. Советское гражданское право. - М.: Юрид. лит., 1967. – 494 с.
10. Кращенников Е.А. Структура субъективного права и право на защиту. Защита субъективных прав и гражданское судопроизводство. - Ярославль, 1977. – 634 с.
11. Полянина С.В. Права человека и их защита // Государство и право, 1996, №10

**Газиев А. Г.** ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.79-86**
**УДК: 347.1**

## Осуществление гражданских прав и исполнение обязанностей

**Аннотация:** Рассматриваются вопросы реализации гражданских прав и исполнения обязанностей.

В частности, показано, что основным методом юрисдикционной формы защиты гражданских прав является их судебная защита. Отмечается, что реализация субъективного гражданского права происходит посредством совершения субъектом определенных действий.

Осуществление субъективных гражданских прав направлено на реализацию возможностей, заложенных в содержании этого права. Показывается, что реализация субъективных гражданских прав неразрывно связана с исполнением субъективных обязанностей.

**Ключевые слова:** субъективные гражданские права; гражданско-правовая защита; субъект; управомоченное лицо; имущество; объект; содержание права защиты; исполнение обязанностей; должник; исполнение обязательства; обязательства пассивного типа.

**Библиография**

♦ **Газиев Араз Гусейн оглы** - магистрант юридического факультета, Национальная Академия Авиации (Азербайджан). E-mail: arazhziyev102@gmail.com

1. Конституция Азербайджанской Республики. – Баку: Хугуг Яйын еви, 2021. – 63 с. (на азерб. яз.).

2. Аллахвердиев С.С. Гражданское право. 1-ая книга. Общая часть. – Баку: Дигеста, 2003. – 974 с. (на азерб. яз.).

3. Аллахвердиев С.С. Курс гражданского права. Т.1. 3-е изд. – Баку: Хугуг Яйын еви, 2018. – 928 с. (на азерб. яз.).

4. Демирчиева М.Д. Гражданское право. Учебник. – Баку: Зардаби ЛТД, 2015. – 695 с. (на азерб. яз.).

5. Аскеров Я.Г. Комментарий к Гражданскому кодексу Азербайджанской Республики. 1-ая книга. – Баку: Ганун, 2014. – 948 с. (на азерб. яз.).

6. Гражданское право: под ред. Е.А. Суханова. – Баку: Ганун, 1999. – 572 с. (на азерб. яз.).

7. Братусь С.Н. Юридическая ответственность и законность. - М.: Юрид. лит., 1976. – 216 с.

8. Гражданское право. Учебник. Часть 1 / Под ред. А.П.Сергеева, Ю.К.Толстого. - М.: Проспект, 1998. – 632 с.

9. Иоффе О.С. Советское гражданское право. - М.: Юрид. лит., 1967. – 494 с.

10. Кращенников Е.А. Структура субъективного права и право на защиту. Защита субъективных прав и гражданское судопроизводство. - Ярославль, 1977. – 634 с.

11. Полянина С.В. Права человека и их защита // Государство и право, 1996, №10